AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

1003 Çağrı mərkəzi

# XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ



AZƏRBAYCANDA XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ QEYDƏ ALINMAYIB. ODUR Kİ, BU XƏSTƏLİYƏ QARŞI ÖLKƏMİZDƏ QOYUN VƏ KEÇİLƏR ARASINDA PEYVƏNDLƏMƏ TƏDBİRLƏRİ HƏYATA KEÇİRİLMİR!

## XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİ

(Peste des petits ruminants) - qoyun və keçilər arasında yüksək tələfata səbəb olan yoluxucu virus xəstəliyidir.

## XƏSTƏLİYİN MƏNBƏYİ VƏ XƏSTƏLİYƏ YOLUXMA YOLLARI

-Xəstəlik törədicisi xarici mühit şəraitinə davamsız olmaqla, otaq temperaturunda 3-4 saat müddətində tələf olur.
- Xəstəliyin əsas mənbəyi xəstələnmiş və xəstəliyin inkubasiya dövründə olan heyvanlardır.
-Xəstə heyvan orqanizmindən virus ifrazatlar vasitəsilə ətraf mühitə yayılır.
-Xəstəlik törədicisi ilə yoluxma aerogen (hava-damcı), kontakt (təmas) və alimentar (yem, su və s.) yolla baş verir.



## QOYUN VƏ KEÇİLƏRDƏ XƏSTƏLİYİN SİMPTOMLARI EYNİDİR:

- Yüksək hərarət;
- İştahın itməsi;
- Ağız və burun boşluqlarından selikli-serozlu və ya irinli axıntının müşahidə olunması;
- Ağız və burun boşluqlarında nekrotik yaralar;
- Tənəffüsün çətinləşməsi, öskürək və pnevmoniya (ağciyərlərin iltihabı) əlamətləri;
- Mədə-bağırsaq pozğunluğu və ishal.

## XƏSTƏLİYİN GEDİŞATI

- Xəstəlik kəskin və yarımkəskin formalarda baş verməklə, heyvanların 50-100% ölümü ilə nəticələnir.
- Xəstəliyin inkubasiya dövrü 4-6 və bəzən 3-10 gün davam edir.
-Xəstəlik keçirmiş heyvanlarda davamlı immunitet yarandığı üçün təkrar yoluxma nadir hallarda baş verir.

**Qoyun və keçilər arasında taun xəstəliyinə xas olan** əlamətlər aşkar etdikdə həmin heyvanı təcrid edin və dərhal baytar həkiminə məlumat verin!

## XƏSTƏLİYİN İQTİSADİ ZƏRƏRİ

- Xəstəliyin mövcudluğu ölkələrarası beynəlxalq ticarəti və heyvan mənşəli məhsul ixracını, həmçinin yeni heyvan cinslərinin ölkəyə idxalını məhdudlaşdırır.
- Xəstəlik intensiv heyvandarlıqda məhsuldarlığın kəskin şəkildə azalmasına səbəb olur.
- Xəstəlik nəticəsində heyvanlar arasında kütləvi tələfat baş verir.

## XƏSTƏLİYƏ QARŞI PROFİLAKTİK TƏDBİRLƏR

- Təsərrüfatlarda kompleks baytarlıq-sanitariya tədbirləri həyata keçirilməlidir.
- Təsərrüfata gətirilmiş yeni heyvanlar karantində saxlanılmalıdır.
- Otlaqlarda heyvan sürüləri izolyasiya olunmuş şəkildə saxlanmalı, onların otarılması və suvarılması ayrı-ayrı təşkil olunmalıdır.

**İNSANLAR XIRDABUYNUZLU HEYVANLARIN TAUN XƏSTƏLİYİNƏ YOLUXMUR!**